**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

Əlyazması hüququnda

**ALİ MUHAMMAD FATHOLLAHZADEH KHOE**

# İRAN İSLAM RESPUBLIKASINDA QEYRI-NEFT SƏNAYE SAHƏLƏRININ RƏQABƏTQA-BILIYYƏTININ YÜKSƏLDILMƏSI ISTIQAMƏTLƏRI

**İxtisas** : 5307.01- İqtisadi nəzəriyyə
5310.01- Dünya iqtisadiyyatı

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbər**: İqtisad elmləri doktoru prof. **İ.H.Alıyev**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru prof. **R.R Quliyev** i.f.d. dos. **A.M Mustafayev**

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universiteti "İqtisadiyyat və İdarəetmə kafedrası"**

Müdafiə "_24__" 05__ 2013-ci il saat ___ -da AMEA İqtisadiyyat Institutunda fəaliyyət göstərən FD.01.181. Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 31, II mərtəbə, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA –nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _________ 2013-cü ildə göndərilmişdir

FD.01.181. Dissertasiya
Şurasının Elmi katibi

iqtisad üzrə fəlsəfə doktoru ,dos. **G.S.Hacıyeva**
**iqtisad üzrə fəlsəfə doktoru** ,dos. **G.S.Hacıyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Hər bir ölkənin inkişaf səviyyəsi milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf səviyyəsi ilə xarakterizə olunur. Eyni zamanda, ölkənin iqtisadi inkişaf səviyyəsini xarakterizə edən bir sıra makroiqtisadi göstəricilər vardır ki, onlardan biri də sənaye istehsalının həcmi, sənaye məhsullarının keyfiyyətidir. Dünya təcrübəsi sübut edir ki, sənaye sektorunu inkişaf etdirmədən ölkənin və ya regionun ümumilikdə tərəqqisinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan da, sənayedə keyfiyyətin yüksəldilməsi, sənaye istehsalının həcminin və çeşidinin artırılması, sənaye yönümlü təbii-iqtisadi resurs potensialından tam və səmərəli istifadənin təmin edilməsi hər bir ölkənin qarşısında duran ən vacib məsələlərdən biridir.

Neftlə zəngin olan bütün ölkələrdə iqtisadiyyatın qeyri-neft sahələrinin inkişafı xüsusi aktuallıq kəsb edir. Təbii ki, bu və ya digər sahə milli iqtisadi inkişafın lokomotivi rolunu oynaya bilər, amma bu heç də o demək deyildir ki, digər sahələr diqqətdən kənarda qalmalıdır. Məlumdur ki, istər İran, istərsə də Azərbaycan Respublikası neft və digər təbii sərvətlərlə zəngin bir ölkədir. Nəzərə alsaq ki, neft sterateji əhəmiyyət kəsb edir və dünya ölkələrinin marağında olan bir sahədir, onda neft sənayesinin inkişafı, müəyyən mənada labüd bir prosesə çevrilir. Ona görə ki, neft bütün dünyanı maraqlandıran, dünyanın hegemon dövlətlərinin marağında olan bir təbii sərvətdir və əsasən, bu sahənin inkişafı da milli iqtisadiyyatlar, ayrı-ayrı dövlətlər səviyyəsindən o qədər də asılı deyil. Ona görə də, əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasını, ölkədə yoxsulluq və məşğulluq kimi əhəmiyyətli problemlərin səmərəli həllini təmin etməyi qarşısına məqsəd qoyan hər bir ölkə üçün sənayenin qeyri-neft sahələrinin inkişafı ən ümdə məsələlərdən biridir.

Qeyd olunduğu kimi, sənayenin neft sektoru daim dünya dövlətlərinin marağında olan bir sahədir və beynəlxalq şirkətlərin diqqətini cəlb edir. Ona görə də bu sahənin inkişafı, əksər hallarda, çox sürətlə baş verir, yeniliklərin, yeni texnika və texnologiyaların tətbiqində milli təsərrüfat çərçivəsindən də kənara çıxır. Bu baxımdan da, qeyri-neft sektorunun inkişafı məsələləri daha çox diqqəti cəlb edir və daha vacibdir. Nəzərə alsaq ki, əhalinin normal yaşayışı və fəaliyyəti, gündəlik tələbat məhsul-

ları ilə təminatı, əsas etibarı ilə, qeyri-neft sektorunun üzərinə düşür, onda bu sahənin inkişaf etdirilməsi zəruriliyi aydın olar. Təbii ki, söhbət inkişafdan gedirsə, ilk növbədə, bu sahədə istehsal edilən məhsulların və göstərilən xidmətlərin tələbata uyğunluğu, yüksək keyfiyyətə malik olması və rəqabətqabiliyyətliliyi olduqca vacibdir.

İran İslam Respublikası zəngin neft-qaz ehtiyatlarına malikdir və bu, artıq bütün dünya tərəfindən qəbul edilməkdədir. Eyni zamanda, İranda qeyri-neft sənaye sahələrinin inkişafı üçün də zəngin və çeşidli ehtiyatlar mövcuddur. Bu ehtiyatların tam və səmərəli şəkildə təsərrüfat dövriyyəsinə cəlb edilməsi ilə qeyri-neft sənaye sahələrinin inkişafına nail olunması olduqca mühüm əhəmiyyət kəsb edir. Statistik məlumatlara görə yaxın bir neçə il ərzində, İranın qeyri-neft sektoru üzrə ixracı 40 miyard dollara çatacaqdır. Ölkədə ÜDM-in 70%-dən çoxu qeyri-neft sektorunun payına düşür. Daha dəqiq desək, ÜDM-in 10%-i kənd təsərrüfatının, 45%-i xidmət sahələrinin, 45 %-i isə sənayenin payına düşür. Ümumilikdə isə, ÜDM-in yalnız 30%-i neft və mədən sənayesinin hesabına formalaşır. Bütün bunlardan da aydın olduğu kimi, İran İslam Respublikası qeyri-neft sənaye sektorunun inkişafı üçün böyük həcmdə ehtiyatlara və geniş imkanlara malikdir. Ona görə qeyri-neft sektorunun inkişafı istiqamətində müvafiq elmi araşdırmaların aparılması, nəzəri-praktiki əhəmiyyətə malik təklif və tövsiyələrin işlənib hazırlanması çox vacibdir.

Qeyd olunduğu kimi, istənilən sahənin inkişafı, həmin sahənin rəqabətə dözümlülük səviyyəsindən çox asılıdır. Nəzərə alsaq ki, qloballaşma və inteqrasiya proseslərinin nəticəsi olaraq, artıq milli təsərrüfatlar sürətlə qlobal iqtisadi məkana daxil olurlar və bu da rəqabət mübarizəsini daha da sərtləşdirir, onda rəqabətqabiliyyətliliyin təmin edilməsinin əhəmiyyəti aydın olar. Rəqabətqabiliyyətlilik kompleks bir anlayışdır və onun formalaşmasına bir çox amillər təsir edir. Tədqiqatın da başlıca məqsədi İranda qeyri-neft sənaye sektorunda rəqabət qabiliyyətliliyin formalaşmasına təsir edən amillərin aşkara çıxarılması və beləliklə də rəqabətqabiliyyətlilik səviyyəsini yüksəltməkdir. Bütün bunlar tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

**Problemin öyrənilmə səviyyəsi.** Sənayenin qeyri-neft sektorunun inkişafı, bu sahədə mövcud potensialdan tam və səmərəli istifadə, qeyri-neft sənaye sahələrinin inkişafı üçün əlverişli mühitin formalaşdırılması ilə əlaqədar məsələlərin tədqiqinə ayrıca elmi tədqiqat işlərində geniş yer verilməmişdir. Eyni zamanda, istər Azərbaycan Respublikasında, istərsə

İran İslam Respublikasında və xarici ölkələrdə bir çox alimlərin əsərlərində əlaqədar məsələlərin tədqiqinə rast gəlmək mümkündür. Azərbaycan alimlərindən A.A.Nadirov, A.K.Ələsgərov, Ə.X.Nuriyev, İ.H.Alıyev, R.P.Sultanova, D.Ə.Vəliyev, İran alimlərindən M.Səlimfər, M.Mohsenvendi, Doktor Nili, H.Əbrişəmi A.Vəziri və digərləri öz əsərlərində qeyri-neft sənaye sahələrinin inkişafı, regionların sosial-iqtisadi inkişafı, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, qeyri-neft sektorunun proporsional inkişafı, bu sahənin maliyyələşdirilməsi və s. kimi məsələlərin tədqiqinə geniş yer vermişlər. Xarici ölkə alimlərindən Ö.Kormnov, T.Subbotina, R.Kuçukov, M. Porter, A.Savka, M.Afanasyev, L.Məsnikova, İ.Qurkov və s. alimlərin əsərlərində də əlaqədar məsələlərin tədqiqinə geniş yer verilmişdir.

Bütün ölkələrdə olduğu kimi İranda da istər ümumi iqtisadi inkişaf, istərsə də regional inkişaf baxımından qeyri-neft sənaye sektorunun inkişaf etdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Ayrı-ayrı regionlarda, eləcə də ümumilikdə ölkə ərazisində qeyri-neft sənaye sektorunun mövcud potensialının üzə çıxarılması, bu potensialdan tam və səmərəli istifadə edilməsi hər bir milli iqtisadiyyatın porporsional inkişafı və iqtisadi təhlükəsizliyinin başlıca amilidir. İran İslam Respublikası qeyri-neft sənaye xarakterli bir çox yeraltı və yerüstü sətvətlərə, geniş potensial imkanlara malikdir. Bu baxımdan da, İranda qeyri-neft sənaye sektorunun inkişafı, bu sahənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və s. kimi məsələlər xüsusi aktuallıq kəsb edir. Bütün bunlar seçilmiş tədqiqat mövzusunun aktuallığını bir daha şərtləndirir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi qeyri-neft sənaye sektorunun rəqabət qabiliyyətinin təmin edilməsinin nəzəri əsaslarının öyrənilməsi və mövcud vəziyyətinin təhlili əsasında, bu sahənin yüksəldilməsi, istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və ardıcıl olaraq yerinə yetirilmişdir:

- Rəqabət və rəqabət mühitinin sosial-iqtisadi mahiyyətinin araşdırılması;
- Rəqabət qabiliyyətinin formalaşması mərhələlərinin müəyyənləşdirilməsi;
- Rəqabət qabiliyyətliliyinə təsir edən amillərin müəyyənləşdirilməsi;
- Sənayenin rəqabət qabiliyyətliliyinin təmin edilməsi şərtlərinin

müəyyənləşdirilməsi;

- Qeyri-neft sənaye sahələrinin rəqabət qabiliyyətinin müasir vəziyyətinin təhlili edilməsi və qiymətləndirilməsi;

- Sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsində investisiyaların rolunun müəyyənləşdirilməsi;

-Sənaye istehsalının davamlı inkişaf tələblərinə uyğunlaşdırılmasının rəqabət qabiliyyətinə təsirinin müəyyən edilməsi;

- Milli sənayenin rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın predmetini** İranda qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrdə rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məsələləri təşkil edir.

**Tədqiqatın obyektini** İran İslam Respublikasında fəaliyyət göstərən qeyri-neft sənaye müəssisələri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** İran, Azərbaycan və digər ölkə alimlərinin fundamental tədqiqatlarının nəticələri, iqtisadi nəzəriyyə, dialektikanın prinsipləri, anlayışları, kateqoriyaları, qanunları,onların iqtisadi tədqiqatlarda tətbiqi xüsusiyyətləri təşkil edir.

Tədqiqat prosesində sistemli yanaşma, induksiya və deduksiya üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** qeyri-neft sənaye müəssisələrinin fəaliyyətinin təşkili və idarə edilməsi, bu müəssisələrdə istehsal fəaliyyətinin rəqabət qabiliyyətliliyinin təmin edilməsi ilə əlaqədar qanunlar, proqramlar və digər normativ-hüquqi sənədlər, eləcə də İran İslam Respublikasının illik statistik məlumatları, Sənaye və Mədən Nazirliyinin, o cümlədən digər əlaqədar nazirlik və təşkilatların müvafiq materialları və müəllifin şəxsi müşahidələri təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- rəqabət və rəqabətqabiliyyətlilik anlayışları kompleks şəkildə tədqiq edilmiş və onlara təsir edən amillər müəyyənləşdirilmişdir;

- İranda milli sənayenin rəqabıətqabiliyyətliliyinin yüksəldilməsinin xarakterik cəhətləri müəyyən edilmişdir;

- qeyri-neft sənaye sahələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi amilləri təsdiq edilmişdir;

- qeyri-neft sənaye sahələrinin rəqabətqabiliyyətliliyinin mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmişdir;

- sənaye müəssisələrində rəqabətqabiliyyətliliyin yüksəldilməsi baxımından investisiya resurslarından səmərəli istifadə istiqamətləri təklif

edilmişdir;

- rəqabətqabiliyyətliliyin yüksəldilməsində innovasiya siyasətinin gücləndirilməsi istiqamətində təkliflər işlənib hazırlanmışdır;

- İranda qeyri-neft sənaye sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı əldə edilmiş nəticələr, eləcə də irəli sürülmüş təklif və tövsiyələr qeyri-neft sənaye sahələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, sənaye məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, istehlakçıların bu sahənin məhsullarına olan tələbatının daha dolğun ödənilməsi, qeyri-neft sənaye sahələrində istehsalın müasir tələbata uyğunlaşdırılması istiqamətində, dövlət proqramlarının hazırlanmasında, eləcə də ali təhsil müəssisələrində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işinin əsas müddəaları, irəli sürülmüş təklif və tövsiyələr müxtəlif elmi təşkilatlarda keçirilən elmi-praktiki konfranslarda, o cümlədən "Azərbaycanın milli iqtisadiyyatında modernləşmə: nailiyyətlər və prespektivlər", "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meylləri" adlı konfranslarda məruzə edilmiş, bəyənilmiş və çap edilmişdir.

**Dərc edilmiş məqalələr.** Dissertasiya işinin əsas müddəalarını əks etdirən 10 elmi məqalə və tezis müxtəlif yerli və xarici elmi jurnallarda, eləcə də konfrans materiallarında çap edilmişdir.

**İşin quruluşu və həcmi:** Dissertasiya işi giriş, üç fəsil, 8 paraqraf, nəticə və təkliflər, eləcə də istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 142 səhifədir. İşdə bir sxem və 14 cədvəl verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Giriş mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, nəzəri-metodoloji əsasları, məqsəd və vəzifələri, tədqiqatın elmi yeniliyi, eləcə də praktiki əhəmiyyəti şərh edilmişdir.

İşin **"Milli sənayenin rəqabət qabiliyyətinin formalaşmasının nəzəri-metodoloji əsasları"** adlanan I fəslində rəqabət, rəqabətqabiliyyətlilik və rəqabət mühiti anlayışlarının sosial-iqtisadi məzmunu, milli sənayenin rəqabət qabiliyyətliliyinin təmin edilməsinin nəzəri əsasları və prinsipləri, rəqabətqabiliyyətliliyin yüksəldilməsinin səciyyəvi xüsusiyyətləri göstərilmiş, bu sahədə beynəlxalq təcrübə təhlil olunmuş və

ümumiləşdirmələr aparılmışdır.

Rəqabət bazar əlaqələrinə cəlb olunmuş bazarın iştirakçıları arasında xüsusi formada təzahür edən münasibətləri ifadə edir. O, bir tərəfdən istehsalçılar arasında, digər tərəfdən isə istehlakçılar arasında mənafelərin reallaşması uğrunda mübarizəni əks etdirir. Onlar öz aralarında rəqabət mübarizəsi yolu ilə istehsalda, alqı-satqıda əlverişli şəraitə nail olmağa çalışırlar. Bu mübarizə isə həmişə onları istehsalı təkmilləşdirməkdə, genişləndirməkdə maraqlı edir, çünki rəqabət nəticəsində iflasa uğramaq təhlükəsi var. Rəqabət bazar iqtisadiyyatı şəraitində müəssisələrin, xüsusi sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin başlıca amilidir.

Rəqabət bir tərəfdən istehsalın kifayət dərəcədə çevik olmasında istehsalçıları stimullaşdırır, digər tərəfdən bu iqtisadi mübarizəyə tab gətirməyənlərin iflasa uğramasına səbəb olur. O, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin sürətləndirilməsini, əməyin təşkilinin mütərəqqi formalarının tətbiqini zəruri edir. Eyni zamanda, rəqabət iqtisadiyyatda təşkilati və struktur dəyişikliyin aparılmasına rəvac verir və onu sürətləndirir. Bütün bunlara rəğmən, nəticədə məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, dünya bazarına rəqabət qabiliyyətli məhsullar çıxarmağa imkan yaranır.

Məlumdur ki, rəqabət,iqtisadi inkişafın, məhsulun keyfiyyətinin yüksəlməsinin, elmi texniki tərəqqinin sürətlənməsinin, istehsal xərclərinin və qiymətin aşağı salınmasının güclü stimuludur. Cəmiyyət üçün səmərəsiz istehsalın ləğvini tələb edən rəqabət, ictimai istehsalın səmərəliliyinin intensiv artmasına da şərait yaradır. Əmtəə istehsalçılarını bazar tələbilə istiqamətləndirən rəqabət əmtəə və xidmətlərin geniş seçilməsinə, istehsal ehtiyatlarının və istehlak ehtiyaclarının daha tam və dolğun ödənilməsinə şərait yaradır.

Qeyd edildiyi kimi, rəqabət əmtəə istehsalı ilə eyni vaxtda yaranmışdır, lakin kapitalizmdə ictimai istehsalın tənzimlənməsinin əsası da, məhz rəqabət oldu. XIX əsrin ortalarında bazar dövlət tərəfindən tənzimlənməyən azad rəqabətlə geniş inkişaf tapdı. Belə bazar əmtəə istehsalçılarına, tələb və təklif mexanizmi, qiymətin dəyişməsi ilə təsir edirdi və daim istehlakçıların tələbatları ilə hesablaşmağa, keyfıyyəti yaxşılaşdırmağa, əmək məhsuldarlığını yüksəltməyə, istehsalı genişləndirməyə, xərcləri azaltmağa məcbur edirdi. Bu vaxt rəqabətin iki əsas forması təzahür edirdi - sahə daxili və sahələrarası.

Rəqabətin təsnifatı bazarda istehsalçıların miqdarından və xüsusi çəkisindən asılıdır. Sahədaxili və sahələrarası rəqabətlə yanaşı, uyğun olaraq mütərəqqi (azad) və mütərəqqi olmayan rəqabəti fərqləndirirlər. Azad rəqabət sistemi istehlakçının hüquq pozuntusunun bütün formalarınıı kənar edir. Pul gəlirlərinə malik olan və öz tələbatlarını həyata keçirməyə hazırlaşan hər bir şəxs ona lazım olan əmtəələri və xidmətləri almağa ixtiyarı var. Material, əmək, maliyyə və digər resursların sürətli dəyişkənliyi rəqabət iştirakçılarını öz pullarını gəlirlərinin artmasından ötrü hər hansı bir fəaliyyətə qoyurlar. Bunu o vaxt etmək olar ki, onun kapital qoyduğu sahədə geriləmə baş versin. Bu, istehsala əlavə resurslar cəlb edildikdə və onların daha səmərəli kombinasiyalarının tətbiqində, qabaqcıl texnologiya mənimsənildikdə, əvvəl dondurulmuş istehsal güclərindən istifadə edildikdə mümkün olur.

XXI əsr beynəlmiləlləşmə, qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi ilə xarakterizə olunur. Artıq, dünya bazarına yaxından inteqrasiya olunmaq, qlobal iqtisadi mühitdə cərəyan edən sosial-iqtisadi proseslərin fəal iştirakçısına çevrilmək, beynəlxalq bazarlara rəqabətqabiliyyətli milli məhsullarla çıxmaq hər bir dövlətin dinamik inkişafının zəruri şərtinə çevrilmişdir. Aydındır ki, qeyd olunanlar dünyada beynəlxalq ticarətin də sürətlənməsinə, ayrı-ayrı dövlətlərin xarici ticarət dövriyyəsinin artımına, dünya bazarlarına yeni-yeni əmtəələrin çıxarılmasına səbəb olacaqdır. Bu halda isə, beynəlxalq ticarətlə əlaqədar olan beynəlmiləlləşmənin inkişafı labüddür. Qloballaşma isə, öz növbəsində, əlavə dəyərin yaradılmasının transmilli həlqələrinin təşkili ilə əlaqədar olaraq beynəlmiləlləşmənin istehsal sferasında da genişlənməsinə səbəb olur. Eyni zamanda, qloballaşma prosesləri milli iqtisadiyyatın, o cümlədən milli sənayenin, onları formalaşdıran təsərrüfat subyektlərinin daxili və beynəlxalq rəqabət qabiliyyətliliyini aktuallaşdırmışdır. Amma, təbii ki, beynəlxalq bazarda rəqabət mübarizəsindən qalib çıxmaq üçün, ilk növbədə daxili rəqabət qabiliyyətlilik təmin olunmalıdır. Beynəlxalq rəqabət dünya bazarında ən əlverişli istehsal və məhsul satışı, habelə bazarda daha yaxşı mövqe tutmaq uğrunda təsərrüfat subyektləri arasında qarşılıqlı əlaqə, qarşılıqlı təsir və mübarizədirsə, daxili rəqabət milli istehsalçılar arasında istehlakçılar tərəfindən daha çox seçiləni təmin etməkdir. Amma bir reallıq mövcuddur ki, qiymət rəqabəti ilə əmtəənin daxili bazarı ələ keçirməsi asan olduğu halda, beynəlxalq bazarda bu heç də həmişə mümkün olmur. Dünya bazarında, əmtəənin seçimində, daha çox onun keyfiyyət göstəriciləri, istehlakçı tələbatına

uyğunluq səviyyəsi və s. kimi göstəricilər əsas götürülür.

Rəqabətqabiliyyəti probleminin öyrənilməsində tanınmış alim M.Porter hələ 1990-cı ildə özünün "Beynəlxalq rəqabətqabiliyyəti" adlı əsərində göstərmişdir ki, rəqabətqabiliyyəti firmalar üçün dünya bazarında rəqabət aparmaq imkanını təmin edən qlobal strategiya, bir çox tədqiqatçılar üçün müsbət saldoya malik olan xarici ticarət balansı, bir sıra iqtisadçılar üçün isə mübadilə məzənnəsinə çevrilmiş məhsul vahidinə az istehsal məsrəfləridir. Digər bir alim, Fransua Benoyza isə, rəqabətqabiliyyəti anlayışını özünəməxsus şəkildə izah edərək göstərir ki, adətən rəqabətqabiliyyəti dünya bazarlarında müvəffəqiyyətli fəaliyyətin əhalinin rifah səviyyəsinin yüksəldilməsi ilə əlaqələndirilməsi kimi başa düşülür. Onun fikrincə, hər hansı bir ölkədə əhalinin rifah səviyyəsinin yüksəldilməsi strategiyası rəqabət qabiliyyətinin aşağıdakı tərkib hissələrinin əlaqələndirilməsini tələb edir: məhsuldarlıq – onun yüksəldilməsi, əhalinin gəlirlərinin davamlı olaraq artmasının vacib şərtidir; qiymət üzrə rəqabətqabiliyyəti (real mübadilə məzənnəsi ilə) - ölkənin dünya bazarında rəqabət mübarizəsi aparma qabiliyyəti və ölkədə iş yerləri açılmasına təsir göstərən amillərdən biridir; investisiya cazibədarlığı - məhsuldarlığa və innovasiya fəaliyyətinə həlledici təsir göstərən əlverişli investisiya mühitidir.

Rəqabətqabiliyyətliliyə nəzəri yanaşmalardan biri də avstriya iqtisadçısı Y.Şumpeterin əsərlərində öz əksini tapmışdır. O, qeyd edirdi ki, "rəqabətqabiliyyəti" anlayışı həddən artıq dinamik kateqoriyadır və onun dinamikası, hər şeydən əvvəl, xarici amillərlə əlaqədardır və rəqabət tarazlı deyil, daim dəyişəndir. Sahənin təkmilləşməsi və yeniləşməsi birdəfəlik hadisə deyil, fasiləsiz prosesdir, hansı ki, onun arxasınca uzunmüddətli sakitlik gəlir. Bütün bunlarla yanaşı, milli rəqabətqabiliyyəti anlayışının müasir tərifi M.Porter nəzəriyyəsinə uyğun gəlir və rəqabət üstünlüyü anlayışının təkamülündə yeni mərhələni əks etdirir. Bu baxımdan milli sənayenin rəqabət qabiliyyətliliyinə dair müxtlif yanaşmalar mövcuddur. Bu yanaşmalar istər ayrı-ayrı alimlərin fikirlərində, istərsə də müxtəlif təşkilatların yanaşmalarında öz əksini tapır. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı milli rəqabət qabiliyyətinə belə bir tərif vermişdir: rəqabətqabiliyyəti–şirkətlərin, sahələrin, regionların və millətlərin beynəlxalq rəqabət üçün açıq qalmaqla nisbətən yüksək səviyyədə gəlir və əmək haqqı yaratmaq qabiliyyətidir. Bu yanaşmanı dəstəkləyən Amerika alimləri D.Dollar və E.Vulf qeyd edirlər ki, o ölkə rəqabətqabiliyyətli hesab edilir ki, həmin ölkə yüksək

texnologiya və məhsuldarlıq əsasında beynəlxalq ticarətdə uğur qazanır və bu uğuru yüksək gəlir və əmək haqqı ilə uzlaşdırır.

Eyni zamanda, sərvət əsasında təmin edilən rəqabət qabiliyyətlilik, təbii ki, məhdud bir dövrü əhatə edir. Belə qazanılmış rəqabətqabiliyyətliliyinin davam etmə müddəti sərvətin mövcudluğu qədər olur. Nəhayət, sərvət tükənəndə və ya azalmağa başladıqda, anoloji olaraq rəqabət qabiliyyətlilik səviyyəsi də azalır, sıradan çıxır. İstehsal amilləri əsasında rəqabətqabiliyyətinin inkişafının və rəqabət üstünlüyünün əldə edilməsi ölkənin təbii-iqtisadi, əmək və s. resurslara malik olma, eləcə də onlardan səmərəli istifadə olunma dərəcəsindən asılıdır. Beynəlxalq təcrübə göstərir ki, rəqabətqabiliyyətinin yeganə resursu kimi yalnız istehsal amillərinin əsas götürülməsi, beynəlxalq rəqabət şərtlərinə davam gətirə bilən sahələri kəskin şəkildə məhdudlaşdırır. Bu mərhələdə milli iqtisadiyyat, o cümlədən milli sənaye tələbin və qiymətlərin kəskin dəyişməsinə səbəb olan dünya iqtisadi böhranlarına olduqca həssas olur, istehsal amilləri tükəndikcə isə vəziyyət kəskinləşir.

Rəqabətqabiliyyətliliyin formalaşmasının növbəti mərhələlərindən biri də texnoloji inkişaf mərhələsidir. Bu məsələdə iqtisadiyyatın texnoloji üstünlüyü milli firmaların müasir, səmərəli avadanlığa və müasir texnologiyaya intensiv kapital qoyuluşlarının həyata keçirmələrinə əsaslanır ki, bunları da digər ölkələrdən də əldə etmək mümkündür. Bu zaman cəlb edilmiş investisiya resursları, eyni zamanda lisenziyaların satın alınmasına, müştərək müəssisələrin yaradılmasına və rəqabətqabiliyyətinin yüksəldilməsinin digər vasitələrinə yönəldilir. Onu da nəzərə almaq lazımdır ki, satın alınan texnika və texnologiya dünyada mövcud olan ən yaxşı texnologiya nümunələrindən, bir qayda olaraq, bir nəsil geridə qalır. Çünki dünyada rəqabətqabiliyyətinin liderləri, bir qayda olaraq, öz liderliklərini daha uzunmüddətli təmin edə bilmək üçün gənc nəsil texnologiyalarını satmırlar. Buna baxmayaraq, milli sənayenin yeniliklərə əsaslanan rəqabətqabiliyyəti müxtəlif inkişaf səviyyəsində olan ölkələrdə baş verə bilər. Bu halda, əvvəlcə bir sıra sahələr innovasiyanı tətbiq etməklə, rəqabət üstünlüyü əldə etməyə çalışırlar.

Milli iqtisadiyyatın, eləcə də milli sənayenin inkişafında aparıcı rola malik olan beynəlxalq ticarətdən səmərəli istifadə etməklə sənayenin inkişafı sahəsində müvəffəqiyyət qazanmağın yolları haqqında bir sıra nəzəriyyələr mövcuddur. Belə ki,klassik ingilis iqtisadçısı Smitin mütləq üstünlüklər nəzəriyyəsinə görə ölkə məhsulu o zaman ixrac etməlidir ki, onun xərcləri digər ölkələrə nisbətən aşağıdır. David Rikardo həmin

ideyanı müqayisəli üstünlüklər nəzəriyyəsi şəklində daha da təkmilləşdirdi. Bu nəzəriyyəyə görə bazar, ölkənin resurslarını daha məhsuldar sahələrə yönəldir. Bu isə o deməkdir ki, ölkə hər hansı bir məhsulu ozü müstəqil olaraq az xərclə istehsal edə bildikdə də idxal edə bilər. Göstərilir ki,sənayenin sürətlə inkişaf etməsi üçün mütləq və nisbi üstünlüklər nəzəriyyəsinin hər ikisi faydalıdır.

Beləliklə, müxtəlif nəzəri baxışları, ayrı-ayrı ölkələrin təcrübəsini, eləcə də müxtəlif təşkilat və qurumların münasibətlərini nəzərə alaraq, bu nəticəyə gəlirik ki, rəqabət qabiliyyətlilik bir sıra kompleks amillərdən asılıdır ki, bura istehsal amilləri, idarəetmə, texnoloji amillər və s. aiddir.

Müəyyənləşdirilmişdir ki, hər hansı sənaye müəssisəsi özünün rəqabət qabiliyyətliliyini aşağıdakı şərtlər əsasında təmin edə bilər:

- rəqabət üstünlüyü yerli şərait nəzərə alınmaqla yaradılır və qorunub saxlanılır. Milli iqtisadiyyatın strukturunda, dəyərlər kompleksində, milli mədəniyyətlərdə, dövlət quruluşunda və ölkələrin tarixində olan fərqlər rəqabət sahəsində müvəffəqiyyətə ciddi təsir edir;
- istənilən sahənin rəqabət üstünlüyünün əsasında innovasiyalar, onların tətbiqinin stimullaşdırıcı və təkmilləşdirici tədbirləri dayanır;
- bazar iqtisadiyyatı sisteminə xas olan rəqabət qabiliyyətlilik elə bir hadisədir ki, bu zaman bir sıra istehsalçılar digər istehsalşılara nisbətən müəyyən həlledici rəqabət üstünlüyünü əldə edir və bunun sayəsində bazarın tələbatını ən yaxşı ödəmək qabiliyyətinə malik olur;
- rəqabətqabiliyyəti yalnız ayrı-ayrı istehsalçıların imkanlarının müqayisə edilməsi ilə müəyyən edilə bildiyi üçün nisbidir və həmin müqayisənin hansı istehsalçı ilə hansı bazarda aparılmasından asılıdır. Bununla yanaşı, istehsalçı və ya əmtəə hansı bazarda olmasından asılı olmayaraq, şəksiz rəqabət üstünlüyünə malik ola bilər. Ona görə də, mütləq və nisbi rəqabətqabiliyyəti anlayışı elmi ədəbiyyata daxil edilmişdir. Həqiqətən, dünya bazarında rəqabətqabiliyyəti olmayan əmtəə, daxili bazarda rəqabətqabiliyyətli ola bilər, amma əksinə, daxili bazarda üstünlüyə malik olmayan əmtəənin, dünya bazarında uğur qazanması çox çətindir;
- rəqabətqabiliyyətinin bu və ya digər səviyyəsini təmin edən həlledici şərtlər arasında istehsalçıların istehsal amillərinə malik olmasını, habelə keyfiyyət, qiymət və onlardan istifadə səviyyəsini göstərmək olar. Uzun tarixi dövr ərzində iqtisadi inkişafda ən mühüm rolu əsas istehsal amilləri oynamışlar. Sonralar ETT-nin inkişafı və elmin bila-

vasitə məhsuldar qüvvəyə çevrilməsi nəticəsində texnologiya, innovasiyalar və yüksək ixtisaslı kadrların mövcudluğu ilə əlaqədar olan amillər daha böyük əhəmiyyət kəsb etməyə başladı. Beləliklə də resursların bolluğu deyil, onlardan səmərəli istifadə məsələsi həlledici amilə çevrildi;

- rəqabətqabiliyyəti müəssisənin fəaliyyətinin səmərəliliyinin ümumiləşdirilmiş meyarıdır, çünki onun inkişafı rəqabətqabiliyyətlilik səviyyəsindən çox asılıdır. Eyni zamanda, o müəssisəni təşkil edən iqtisadi sistemin ünsürləri, proseslər və qarşılıqlı əlaqələrin kəmiyyətindən, keyfiyyətindən və inkişaf sürətindən birbaşa asılıdır. Bu isə o deməkdir ki, rəqabətqabiliyyəti iqtisadi sistemin formalaşması və təkmilləşdirilməsində mühüm rola malik bir amildir.

Məlumdur ki, hansı ölkədə həyata keçirilməsindən, ölkənin inkişaf səviyyəsindən asılı olmayaraq, bazar münasibətləri şəraitində istənilən komersiya fəaliyyətinin başlıca məqsədi mənfəət götürməkdir. O cümlədən, milli sənayenin də bazar münasibətləri əsasında fəaliyyət göstərdiyini nəzərə alsaq, bu sahədə də müəssisələrin başlıca məqsədini yüksək mənfəətin təmin olunması kimi qəbul etmək olar. Aydındır ki, yüksək mənfəətin əldə edilməsi, öz növbəsində istehsal edilən əmtəənin rəqabətqabiliyyətli olmasını tələb edir. Başqa sözlə desək, müəssisənin məqsədinə çatması üçün onun, ilk növbədə, daxili, sonra isə xarici bazarda rəqabətqabiliyyətli olması çox vacibdir.

M.Porterə görə, inkişaf edən ölkə müxtəlif rəqabət üsulları ilə fərqlənən, adətən üç mərhələdən keçir. "İstehsal amilləri ilə hərəkət edən iqtisadiyyata" rəqabət mübarizəsində qələbə, bir qayda olaraq, istehsal xərclərinin dəyərindən asılıdır. "İnvestisiyalar ilə hərəkət edən iqtisadiyyatda" isə rəqabət ,hər şeydən əvvəl, istehsalın texniki səmərəliliyinin yüksəldilməsinə əsaslanır. "İnnovasiyalarla hərəkət edən iqtisadiyyatda" isə alıcıların daha yüksək qiymətlə almağa razı olduqları yeni məhsul və xidmət istehsalı prosesi aparıcı mövge tutur. Bu zaman innovasiya məhsullarının istehsal xərclərinin azaldılması o qədər də vacib deyildir və onları rəqiblərlə eyni səviyyədə saxlamaq kifayətdir. Yeni əmtəələrin daha yüksək istehlak və bazar dəyəri, eləcə də onların unikal keyfiyyətləri texnoloji innovasiyaların köməyi ilə yaradılır. Reklam şirkətləri bu zaman alıcıları inandırmalıdırlar ki, bu keyfiyyətlər onların dəyərlərinə uyğundur. Lakin belə rəqabət üsulu texnoloji və müəyyən dərəcədə "mədəni" liderlik tələb edir. Bu isə əslində inkişaf etmiş və "biliyə əsaslanan iqtisadiyyatda" mümkündür.

Göstərilir ki, ABŞ-da rəqabət siyasətinin istiqamətləri haqqında iki əsas iqtisad məktəbinin – Çikaqo və Harvard məktəbləri arasında uzun müddətdir ki, mübahisələr gedir. Çikaqo məktəbi rəqabət və sənaye siyasəti haqqında nisbətən liberal görüşləri müdafiə edir, bu məktəbin nümayəndələrinə görə rəqabətin dəstəklənməsi siyasətində yeganə meyar səmərəlilik olmalıdır. Rəqabət və sənaye siyasətinin əlaqəsi Avropa Birliyinin (AB) həm rəqabət qanunvericiliyində, həm də struktur problemlərinin tənzimlənməsi üçün onun tətbiqi prosesində öz əksini tapır. İlk əvvəl AB-də ayrı-ayrı dövlətlərin təcrübəsində milli şirkətlərin dəstəklənməsi siyasəti AB-nin yaradılması məqsədlərinə - Avropa iqtisadi məkanında azad bazarın inkişafına mane olduqda rəqabət siyasəti sənaye siyasətinin əleyhinə yönəldilirdi. AB-də müasir mərhələdə sənaye və rəqabət siyasətinin qarşılıqlı əlaqəsi minimallıq prinsipinə əsaslansa da, onların qarşılıqlı əlaqəsi danılmazdır. 1992-1994-cü illərdə milli şirkətlərə dövlət yardımını tənzimləyən xüsusi qanunlar hazırlanmışdır ki, burada da əsas meyar Avropa qitəsində rəqabətin inkişafı, rəqabət və sənaye siyasətlərinin uzlaşdırılması problemləridir. Beləliklə, AB-də sənaye siyasəti rəqabət siyasəti normalarına uyğun şəkildə, uzlaşdırılmış formada həyata keçirilir. Daha doğrusu, AB iqtisadiyyata dövlət müdaxiləsinin bu iki forması arasında əlverişli, münasib nisbət yaradılmasına çalışır. AB-dən fərqli olaraq, inkişaf etmiş Yaponiya dövlətində isə adətən sənaye siyasətinə üstünlük verilir. 70-ci illərə qədər ixracatçılar üçün vergi güzəştləri və digər stimullaşdırıcı tədbirlər həyata keçirilərkən ticarət maneləri ilə qorunan inhisarlar bir növ unudulurdu. Yaponiyada, son nəticədə rəqabət və sənaye siyasətinin uzlaşdırılması, bir tərəfdən antiinhisar siyasətinin yumşaldılmasına, digər tərəfdən isə, sənaye siyasəti təşkilatlarının təcrübəsində rəqabət məsələlərinin qeyri-formal tənzimlənməsi mexanizmindən aktiv istifadə edilməsinə yönəldilir.

Dissertasiya işinin **“Azərbaycanda və İranda qeyri-neft sənaye sahələrinin rəqabətqabiliyyətinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi”** adlanan II fəslində milli sənayenin rəqabətqabiliyyətliliyinin müasir vəziyyəti İran və Azərbaycanın statistik materialları əsasında müqayisəli şəkildə təhlil edilmiş, qiymətləndirilmiş, eyni zamanda rəqabət qabiliyyətliliyin yüksəldilməsində dövlətin rolu tədqiq olunmuşdur.

Qeyd edilir ki,İranda sənaye müəssisələri ayrı-ayrı Ostanlarda fəaliyyət göstərir ki, onların fəaliyyəti də müvafiq lisenziyalarla tənzimlənir. 2010-cu ilin məlumatlarına görə Ostanlar üzrə fəaliyyət göstərən sənaye

müəssisələrinin 12,2%-i Şərqi Azərbaycanın, 9,1%-i İsfahanın, 9,6%-i Tehranın, 5,4%-i Xorasan-Rizavinin, 5,4%-i Mazandaranın, 5,3%-i Markazinin və 4,7%-i isə Yəzdin payına düşür. Eyni zamanda, sənaye məhsulları istehsalına nəzər saldıqda, bu sahədə də aparıcı mövqeyin qeyd edilən vilayətlərə aid olduğu aydınlaşır. Göründüyü kimi, yeni müəssiələrin yaradılmasında da, İranda proporsionallıq gözlənilir və bütün regionlar üzrə bu və ya digər sayda müəssisə yaradılmışdır.

Təbii ki, yeni müəssisələrin hansı vilayətdə yaradılmasına yerli potensial, iş qüvvəsi, həmin məhsula olan tələbat və s. kimi amillər təsir edir. Məhz bu amillərin təsiri altında yaradılan yeni müəssisələrin sayında ilk yerləri 10,5%-lə İsfahan, 10,3%-lə Buşəhr, 7,6%-lə Tehran, 7,4%-lə Xorasan-Rizavi, 7,0%-lə Şərqi Azərbaycan, 6,0%-lə Qərbi Azərbaycan, 4,9%-lə Gilan vilayətləri bölüşür.

İstənilən müəssisənin rəqabətqabiliyyətliliyinə təsir edən mühüm amillərdən biri də işçilərin sayı və ixtisas səviyyəsidir. Belə ki,2010-cu ilin məlumatlarına görə müəyyən edilmişdir ki, işçilərin 24,1%-i qeyri-metal mineral ehtiyatlar, 17,2%-i ərzaq və içki sənayesinin, 8,2%-i metallar, 7,9%-i toxuculuq, 7,3%-i rezin və plastik məmulatlar sənayesinin payına düşür. Eyni zamanda, 100 və daha çox işçinin çalışdığı sənaye müəssisələrinə ərzaq, toxuculuq, kimya və kimyəvi məhsullar, qeyri-metal mineral ehtiyatlar, elektrik maşın və avadanlıqları sənayesi sahələrində daha çox rast gəlinir.

Müəssisədə əmək məhsuldarlığı və məhsulun rəqabətqabiliyyətliliyi, eyni zamanda əməyin ödənişi ilə də bağlıdır. Təbii ki, müəssisədə işçilərin əməyi daha yüksək qiymətləndirildikcə, onalrın məsuliyyət və stimulu da artmış olur ki, bu da nəticədə müəssisənin rəqabətqabiliyyətliliyinə müsbət təsir edir. Cədvəldən göründüyü kimi, istər kiçilərin, istərsə də qadınların əməyinin ödənişində aylıq və birdəfəlik ödənişləri özündə birləşdirən mukafatlar, ümumi ödənişlərin, təqribən 40-45%-ni təşkil edir. Belə ki, 1998-ci ildə kişilərə ödənişin 43,8%-ni, qadınlarda isə 40,0%-ni əmək haqqından kənar ödənişlər təşkil edir.

Cədvəl 1

**10 nəfərdən çox işçinin çalışdığı sənaye müəssisələrində qadın və kiçi əməyinin ödənişi (mln. rial)**

| **İllər** | ***Kişilər*** | | | ***Qadınlar*** | | |
|---|---|---|---|---|---|---|
| | **Ümumi** | **Əmək haqqı** | **Digər ödənişlər** | **Ümumi** | **Əmək haqqı** | **Digər ödənişlər** |
| 1998 1375 | 8195940 | 4605521 | 3590419 | 376732 | 229893 | 146839 |
| 2003 1380 | 19505178 | 10440534 | 9064644 | 1098393 | 675079 | 423314 |
| 2005 1382 | 31526626 | 17039616 | 14487009 | 2027829 | 1326507 | 701323 |
| 2006 1383 | 37334165 | 20704276 | 16629889 | 2601033 | 1685100 | 915933 |
| 2007 1384 | 41572624 | 22821569 | 18751056 | 3016559 | 1902680 | 1113878 |
| 2008 1385 | 52273095 | 28179940 | 24093155 | 3786841 | 2414805 | 1372036 |
| ***2009*** 1386 | 63669503 | 34080542 | 29588961 | 4941375 | 3128631 | 1812744 |

**Mənbə: "İran Statistical yearbook", 2010 –cu il (1387), səh.339.**

Müvafiq olaraq, bu rəqəmlər, 2003-cü ildə 46,5% və 38,5%, 2006-cı ildə 44,5% və 35,2%, 2009-cu ildə isə 46,5% və 36,7% təşkil etmişdir. O cümlədən,istər əmək haqqı ödənişlərində, istərsə də digər ödənişlərdə ilbəil artım qeydə alınmışdır. Cədvəldən göründüyü kimi, yalnız 2003-2009-cu illər ərzində kişilərin əməyinin ödənişi 3,3 dəfə, qadın əməyinin ödənişi isə 4,6 dəfə artmışdır. Bütün bunlar əməyin stimullaşdırılmasını təmin etməklə müəssisədə məhsuldarlığın və keyfiyyətin yüksəlməsinə müsbət təsir göstərir ki, bu da nəticədə rəqabətqabiliyyətliliyi formalaşdırır.

Məlum olduğu kimi, istənilən sahədə uğurlu nəticələrin əldə edilməsi müvafiq maliyyə təminatından çox asılıdır. Başqa sözlə desək, yalnız lazımi maliyyə təminatı olduqda hər hansı təsərrüfat subyekti öz məqsədlərinə çata bilər. Bu baxımdan qeyri-neft sektorunda rəqabətqabiliyyətliliyin formalaşmasında da maliyyə təminatının böyük rolu

vardır. Statistik məlumatlardan göründüyü kimi, 2009-cu il ərzində qeyri-neft sənaye sektoruna 58970,8 milyard rial investisiya qoyulmuşdur ki, bunun da 29,2%-i kimya və kimyəvi məhsullar, 8,6%-i ərzaq məhsulları və içki, 11,1%-i qeyri-metal mineral ehtiyatları sənayesi, 11,9%-i əsas metallar sənayesi, 4,47%-i toxuculuq sənayesi, 3,8%-i rezin və plastik məmulatlar, 3,0%-i fabrikat metal məhsulları (maşın və avadanlıqlardan başqa), 2,5%-i koks, rafinə edilmiş yanacaq məhsulları və nüvə yanacağı, 1,25%-i elektrik maşın və aparatları, 0,28%-i tibbi avadanlıqlar və müşahidə aparatları, 0,66%-i kağız və kağız məhsulları, 0,179%-i ağac və ağac məhsulları, 0,145%-i ayaqqabı sənayesi, 0,007%-i geyim, boyaqçılıq və xəz, 0,004%-i tütün məmulatları sənayesinin, 22,9%-i isə digər sənaye müəssisələrinin payına düşür.

| | Cəmi | 10-49 işçi | 50-99 işçi | 100 və daha çox |
|---|---|---|---|---|

**Cədvəl 2**

**2009-cu il (1386) ərzində İİR-də qeyri-neft sənaye sektoruna**

| Cəmi | 58970790 | 5816986 | 4086534 | 49067270 |
|---|---|---|---|---|
| Ərzaq məhsulları və içki sənayesi | 5075869 | 1113860 | 1059426 | 2902584 |
| Tütün məmulatları sənayesi | 2128 | 0 | 0 | 2128 |
| Toxuculuq sənayesi | 2633309 | 463532 | 810706 | 1359071 |
| Geyim, boyaqçılıq və xəz emalı sənayesi | 39732 | 12947 | 5973 | 20812 |
| Ayyaqqabı sənayesi (buraya əl çantası, təhlükəsizlik kəməri və s. istehsal edən müəssisələr də aiddir) | 85550 | 34588 | 22112 | 28850 |
| Ağac və ağac məhsulları (mebel) sənayesi | 105808 | 46612 | 1909 | 57287 |
| Kağız və kağız məhsulları sənayesi | 390823 | 81199 | 66682 | 242942 |
| Koks, rafinə edilmiş yanacaq məhsulları və nüvə yanacağı sənayesi | 1485103 | 57656 | 7616 | 1419831 |
| Kimya və kimyəvi məhsullar sənayesi | 17212845 | 478860 | 204642 | 16529343 |
| Rezin və plastik məhsullar sənayesi | 2221710 | 610954 | 270805 | 1339951 |
| Qeyri-metal mineral ehtiyatları sənayesi | 6566130 | 1269670 | 250792 | 5045668 |
| Əsas metallar sənayesi | 6996605 | 257269 | 778990 | 5960346 |
| Fabrikat metal məhsulları (maşın və avadanlıqlardan başqa) müəssiələri | 1755729 | 773826 | 127680 | 854224 |
| Elektrik maşın və aparatları sənayesi | 735290 | 110650 | 105701 | 518940 |
| Tibbi avadanlıqlar və müşahidə aparatları sənayesi | 165551 | 67092 | 27868 | 70591 |
| Digər sənaye sahələri üzrə | 13498607 | 438271 | 345632 | 12757484 |

**investisiya qoyuluşları,** mln.rial

**Mənbə: "İran Statistical yearbook", 2010 –cu il (1387), səh.342.**

Yalnız 1998-2009-cu illəri əhatə edən dövrdə İranda sterlizə edilmiş süd istehsalı 1080 min ton və ya 2,9 dəfə, bitki yağları 473,9 min ton və ya 1,6 dəfə, kağız məmulatları 204,4 min ton və ya 1,8 dəfə, su sayğacları istehsalı 307,2 min ədəd və ya 1,6 dəfə, avtobus və mikroavtobusların buraxılışı 4996 ədəd və ya 4,9 dəfə, furqon avtomobil istehsalı isə 144476 ədəd və ya 9,8 dəfə artmışdır. O cümlədən, hesabat

dövründə, yuyucu texnika istehsalında 4,9 dəfə, yuyucu toz istehsalında 21,8 dəfə, yol-tikinti maşınları istehsalında 7,9 dəfə, radio və radio avadanlıqları istehsalında 12,5 dəfə artım müşahidə edilmişdir.

Aydındır ki, sənayenin rəqabətqabiliyyətlilik səviyyəsini, həm də onun ixracyönümlülük vəziyyəti ilə müəyyənləşdirmək mümkündür. Belə ki, ölkənin ixrac potensialı, onun dünya bazarında tutduğu mövqe, həm də milli sənayesinin rəqabətə davamlılığı ilə əlaqədardır.

Araşdırmalar göstərir ki, son dövrlər İranın əsas xarici ticarət tərəfdaşlarından biri də qonşu Azərbaycan Respublikasıdır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məlumatlarına görə 2011-ci ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının İran İslam Respublikası ilə xarici ticarət dövriyyəsinin həcmi 174,83 mln. ABŞ dolları, o cümlədən idxalın həcmi 81,49 mln. ABŞ dolları, ixracın həcmi 93,34 mln. ABŞ dolları təşkil etmiş, xarici ticarət saldosu isə müsbət 11,85 mln. ABŞ dolları olmuşdur. 2011-ci ilin yanvar-iyun aylarında İran İslam Respublikasının Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 1%, o cümlədən idxalda 1,88%, ixracda isə 0,71% təşkil etmişdir.

2010-cu ilin müvafiq dövrü ilə müqayisədə, 2011-ci ilin yanvar-iyun aylarında İran İslam Respublikası ilə xarici ticarət dövriyyəsi 61%, o cümlədən idxal 74,83%, ixrac isə 50,52% artmışdır. Ümumilikdə isə, İİR-in son illərdə ticarət balansı aşağıdakı kimi olmuşdur.

Cədvəl 3

**İran İslam Respublikasının xarici ticarət balansı, mln. USD**

| Növlər | İ L L Ə R | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1993 | 1998 | 2003 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |

| | 1370 | 1375 | 1380 | 1383 | 1384 | 1385 | 1386 | 1387 |
|---|---|---|---|---|---|---|---|---|
| Tic. balans | -6529 | 7402 | 5775 | 5653 | 21281 | 26035 | 39428 | 32039 |
| İxrac | 18661 | 22391 | 23904 | 43852 | 64366 | 76055 | 97668 | 100572 |
| Neft-qaz | 16012 | 19271 | 19339 | 36315 | 53820 | 62011 | 81567 | 81855 |
| Qeyri-neft | 2649 | 3120 | 4565 | 7537 | 10546 | 14044 | 16101 | 18717 |
| İdxal | 25190 | 14989 | 18129 | 38199 | 43085 | 50020 | 58240 | 68533 |

**Mənbə: "İran Statistical yearbook", 2010 –cu il (1387), səh.448.**

İİR-in ticarət əlaqələri və dövriyyəsi dinamik olaraq inkişaf etməkdədir. Bu da, müasir qloballaşma və inteqrasiya prosesləri normal inkişaf yolunda olan hər bir ölkənin qlobal iqtisadi məkana daha yaxından inteqrasiya olunmasını tələb edir. 1993-2010-cu illər ərzində yalnız qeyri-neft sektorunda xarici ticarət dövriyyəsi 321,4 dəfə artsa da, bu əsas etibarı ilə idxalın hesabına baş vermişdir. Tədqiqat aparılan dövrdə qeyri-neft məhsullarının ixracının 981,2 dəfə artmasına baxmayaraq, bu göstərici idxaldan dəfələrlə azdır. Təbii ki, bu halda milli sənayenin rəqabət qabiliyyətliliyinin müsbət qiymətləndirilməsi qeyri-mümkündür.

Statistik araşdırmalardan aydın olur ki, sənayenin ümumi həcm indeksi 2000-2008 -ci illərdə MDB ölkələri üzrə orta hesabla 156% bəndi olduğu halda Azərbaycanda təxminən 293% bəndi olmuşdur. Ölkə iqtisadiyyatında sənayenin payı da sürətlə artır. Belə ki, ölkə üzrə yaradılan əlavə dəyərin 2008-ci ildə 61,8% -i (2000-ci ildə 38,4%) və xalis mənfəətin 73,5% -i (2000-ci ildə 41,7%) sənaye sektorunda yaradılmışdır. Bu isə o deməkdir ki, ölkədə sürətli iqtisadi inkişaf iqtisadiyyatın, o cümlədən sənayenin rəqabətqabiliyyətinin yüksəldilməsi üçün imkanlar yaratmışdır.

Tədiyyə balansının göstəricilərinin təhlil edilməsi göstərir ki, Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətlilik səviyyəsi də əlverişlidir. Belə ki, 2004-cü ildən başlayaraq xarici ticarət balansı artan xətlə müsbət saldo verir .

Ümumilikdə, İran və Azərbaycanda qeyri-neft sənaye sektorunun rəqabətqabiliyyətliliyinin müasir vəziyyətinin təhlili əsasında aşağıdakı nəticələr ümumiləşdirilmişdir:

- hər bir ölkədə sənayedə rəqabətqabiliyyətinin yüksəldilməsinin mühüm şərtlərindən biri istehsal-texniki bazanın möhkəmləndirilməsi və yenilənməsidir. İranda və Azərbaycanda isə istehsal-texniki bazanın

vəziyyəti müasir dünya standartlarına tam cavab vermir və nəticədə bu rəqabətqabiliyyətliliyi aşağı salır;

- dünyada cərəyan edən iqtisadi proseslərə uyğun olaraq, yüksək səviyyəli əmək bölgüsü ilə xarakterizə edilən müasir iqtisadiyyatda bilik getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Belə ki, biliklərə əsaslanan müəssisələr dəyişən şəraitə daha operativ şəkildə reaksiya verməyə, rəqabət mübarizəsində qalib olmağa imkan verir. Məsələn, Avropa Birliyi ölkələrinin açıq iqtisadiyyatının daha da artan inkişafı şəraitində təlim və yeni biliklərə yiyələnmə prosesləri mühüm əhəmiyyət kəsb edir. Xarici rəqiblərin bazarda iştirakı milli istehsalçıları daima işin səmərəliliyini artırmağa, yeni istehsal və malların satışı texnologiyalarının tətbiq edilməsinə məcbur edir. Bütün bunlara isə, yalnız biliyə, elmi araşdırmalara əsaslanaraq nail olmaq mümkündür;

- müşahidələr göstərir ki, investisiya amili sənaye cəhətdən inkişaf etmiş ölkələrdə rəqabət mövqelərinin gücləndirilməsi üçün daima mühüm rol oynamışdır. Böyük həcmdə kapital yatırımları və onlardan səmərəli şəkildə istifadə bir qrip ölkələr üçün təbiət ehtiyatları ilə, digərləri üçün coğrafi mövqe ilə, üçüncüləri üçün isə işçi qüvvəsinin çatışmaması və ya bahalı olması ilə əlaqədar olan rəqabət üstünlüklərinin qüsurlarını və itkisini kompensasiya etməyə imkan yaratmışdır;

- iqtisadiyyatın mineral-xammal sektorunda fəaliyyət göstərən müəssisələrdə mənfəətin yüksək səviyyəsi imkan verir ki, onlar istehsalı restrukturizasiya edərək və əsas fondları yeniləşdirərək istehsal edilən məhsulların rəqabətqabiliyyətini yüksəltmək və həmin müəssisələrin xarici investisiyalar üçün cazibədarlığını artırmaq imkanı əldə etsinlər. Digər sahələrin əksəriyyəti çox vaxt öz məhsullarının rəqabətqabiliyyətini artıra bilmirlər. Bu isə həmin müəssisələrdə istehsal olunan əmtəə və xidmətlərə tələbin azalmasına və müvafiq olaraq onların rentabelliyinin aşağı düşməsinə səbəb olur. Belə bir vəziyyətdə isə investorlar daha yüksək rentabelli müəssisələrə kapital qoymağa üstünlük verirlər. Beləliklə, emaledici sənayedə kiçik və orta biznesin kifayət qədər maliyyə ehtiyatlarını cəlb etmək imkanı zəifdir.

Göstərilir ki, bazar münasibətləri dövlətin iqtisadi proseslərə müdaxiləsini dəstəkləmir, bir çox iqtisadi proseslərdə dövlətin müdaxiləsi qaçılmaz olur. Bu da dövlətin tənzimləyici funksiyalarından irəli gəlir. Belə ki, dövlət antinihisar tədbirlərini reallaşdırmasa, iqtisadi subyektlərin bərabərhüquqlu fəaliyyəti üçün ədalətli rəqabət mühiti formalaşdırmazsa, bu istiqamətdə silsilə tədbirlər həyata keçirməzsə, normal iqtisadi

inkişafdan və rəqabət qabiliyyətli sənayedən danışmaq qeyri-mümkündür. Bu baxımdan dövlətin iqtisadi siyasətində məhsulun, müəssisələrin, sənayenin və bütövlükdə milli iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi problemi aparıcı istiqamətlərdən biridir. Əslində rəqabət üstünlüyündə dövlətin rolu yalnız nisbi xarakter daşıyır, çünki ona çoxsaylı amillər təsir edir. Lakin dövlət firmaların fəaliyyətləri ilə əlaqədar olan təsisat strukturlarının formalaşması və inkişafına təsir göstərə bilər. Əlaqədar təsisat strukturlarının səmərəli fəaliyyəti və onların proseslərə bilavasitə müdaxilə etməməsi rəqabət üstünlüyünün yaradılması və inkişafına ciddi təsir göstərir. Burada, dövlətin səciyyəvi rolu daxildə fəaliyyət göstərən qüvvələrə üstünlük verməkdən və onları gücləndirməkdən ibarətdir. Bununla da fasiləsiz yenilənmə üçün imkanlar və hərəkətverici məqamlar yaradılır. Bu sahədə Yaponiyanın təcrübəsi xüsusilə təqdirə layiqdir. Burada tələbin sürətlə yaranmasını stimullaşdıraraq, sahəni simvolik kooperativ layihələr vasitəsilə qabaqcıl texnologiyanı mənimsəmək zərurəti qarşısında qoyaraq, keyfiyyəti aşkara çıxarmaq və təşviq etmək üçün mükafat müəyyən etməklə ETT nailiyyətlərini və rəqabəti stimullaşdırır,siyasi qərarlar qəbul etməklə yenilənmə tempini sürətləndirməyə, onun ümumi səviyyəsini yüksəltməyə nail olur.

Ölkədə milli sənayenin rəqabət üstünlüyünün təkmilləşdirilməsi ölkə daxilində qabaqcıl və tələbkar tələbin olmasından asılıdır. Tələbə təsir etməyin geniş yayılmış formalarından biri də dövlətin əmtəə və xidmətlərin birbaşa alıcısı kimi çıxış etməsidir. Bunun üçün bəzən, dövlət milli sənaye strukturlarından beynəlxalq standartlara əməl olunmasını tələb edir ki, bu da ölkədə mövcud olan firmaların dünya miqyasında qəbul edilən səviyyədə məhsul hazırlamalarını təşviq edir, standartlara uyğun gələn əmtəə istehsal etmək üçün ixtisaslaşmış firmaların yaranmasına təkan verir. Bununla yanaşı əgər hər hansı bir ölkədə qəbul olunmuş standartlar digər ölkələrdəki analoji standartlardan geri qalırsa, bu rəqabət üstünlüyünü sarsıdır. Belə standartlar yeniliklərin tətbiqini ləngidir və ya ölkədə yenilikləri başqa istiqamətlərə yönəldir. Dövlət tənzimləyici tədbirlər ilə səhiyyə, elektrik təchizatı, telekommunikasiya kimi sahələrdə digər məmulat və xidmətlərin alıcısı qismində çıxış edərək sənaye sahələrinin strukturuna təsir edir.

Tədqiqatın "**İran İslam Respublikasında qeyri-neft sənaye sahələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətləri**" adlanan üçüncü fəslində, qloballaşma şəraitində rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yolları, modernləşmə və innovasiya proseslərinin milli

sənayedə rəqabət qabiliyyətinin yüksəldilməsinə təsiri tədqiq edilmişdir.

Göstərilir ki, müasir dövrdə məhsulun rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə təsir edən əsas amillərdən biri də innovasiyadır. Innovasiya prosesi əmək məhsuldarlığının yüksəldilməsi, tədavül xərclərinin azaldılması, məhsul satışında keyfiyyət tələbatlarının yüksəldilməsi və qiymətin aşağı salınması ilə müşahidə olunur. Məhz yeniliklərin dəqiq mexanizminə arxalanaraq, şirkətlər öz məhsullarının rəqabətə davam gətirməsini təmin edir və tələbatın formalaşmasında təşəbbüsü əldə saxlayırlar. Dünya təcrübəsi göstərir ki, innovasiya proseslərinin siniflərə bölünməsi dünya bazarında liderliyi əldən verməmək, kapitalın investisiya riskini azaltmaq və elmi-texniki inkişafın idarə olunması strategiyasının formalaşması zamanı istifadə etmək üçün lazımdır. Bu prosesin nəticəsi olaraq, əldə edilən yenilikləri əsasən iki qrupa bölmək olar: maddi-texniki və sosial. Maddi-texniki yeniliklərə texnika (avadanlıqlar, cihazlar, EHM və s.), texnologiya (istehsal prosesləri), sənaye materialları (xammal və son məhsul) aid edilir. Öz növbəsində, sosial yeniliklərə iqtisadi (yeni vergilər sistemi, qiymətləndirmə, əmək haqqı sistemi, göstəricilər və s.), təşkilati-idarəetmə (yeni təşkilati strukturlar, qərarların hazırlanması və onların yerinə yetirilməsinə nəzarət və s.), sosial idarəetmə (icra, səhmdar cəmiyyətin fəaliyyətində dəyişikliklər, tərbiyə işi, rəhbərin seçilməsi və s.), hüquqi (əsasən təsərrüfat qanunvericiliyində baş verən dəyişikliklər), pedaqoji (tədris metodları, tərbiyə metodları) aid edilir.

Qeyd edilir ki, innovasiya yolu ilə inkişafla rəqabət qabiliyyəti arasında aşağıdakı qarşılıqlı əlaqə mövcuddur:

- milli sənayenin, təsərrüfat subyektlərinin ətrafdakı dəyişikliklərə uyğunlaşması və ətrafı dəyişdirmək səyləri innovasiya yolu ilə inkişafın determinat əsaslarını təşkil edir;
- ətraf mühitə uyğunlaşma və ətraf mühitin dəyişdirilməsi şüurlu və kortəbii hərəkətlər mahiyyətinə malik ola bilər;
- rəqabətqabiliyyətinə nail olunması əvvəlcə innovasiya hərəkətlərinin mövcud hərəkət çərçivəsində aparılır. Mövcud vəziyyətdə aşkar olunan uyğunsuzluq innovasiya fəaliyyətinin genişlənməsinə yol açır. Belə genişləmə daxili yaradıcılığın artırılması, onun sürətləndirilməsi və yaxud yeniliklərin kənardan cəlb edilməsi yolu ilə həyata keçirilir;
- təbii ki, firmanın rəqabətqabiliyyəti həmişə başqa firmalarla müqayisədə özünü gösətrir. Ona görə də orta səviyyəli rəqabətqabiliyyətinə mövcud innovasiya standartlarını tətbiq etməklə nail olmaq

mümkündür. Rəqabətqabiliyyətinin daha yüksək səviyyəsinə uyğun innovasiya şəbəkəsinin yaradılması ümumi qəbul olunmuş yeniliklərdən fərqli tədbirlər kompleksini tələb edir.

Göstərilir ki,müasir mərhələdə iqtisadiyyatın modernləşdirilməsi əsasında rəqabətqabiliyyətinin yüksəldilməsi dövlətin sənaye siyasətinin prioritet istiqamətlərindən biridir.. Bunun üçün ölkədə elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixracyönümlü, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsalı, dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi, sənaye kompleksində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, investisiya mənbələri və resurslarının müəyyənləşdirilməsi, artırılması və bu resurslardan tam və səmərəli istifadənin təmin edilməsi, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi, ölkədə innovasiya siyasətinin gücləndirilməsi və s. tədbirləri həyata keçirməklə sənayenin dayanıqlı və davamlı inkişasına nail olmaqdan ibarətdir.

Müşahidələrdən bu nəticəyə gəlinir ki, modernləşməyə tələbat ona görə yüksəkdir ki, mövcud əmtəə istehsalçılarının bir çoxu, yuxarıda qeyd edildiyi kimi, lazımi səviyyədə rəqabət qabiliyyətliliyə malik deyillər. İnsanların alıcılıq qabiliyyəti artıqca, zövqlər (dəyişdikcə) inkişaf etdikcə bu aydın hiss edilir. Bu təmayil, son illərdə, əhalinin həyat səviyyəsinin yüksəldiyi bir şəraitdə, özünü yaxın və uzaq ölkələrdən idxalın artmasında da göstərir. Dünya dövlətlərinin təcrübəsi göstərir ki, daxili və beynəlxalq rəqabətqabiliyyətinə malik məhsul istehsal edilməsi yeni texnologiyanın genişmiqyaslı tətbiqini tələb edir. Milli sənayenin sürətlə modernləşdirilməsi zərurəti də, məhz bu amildən irəli gəlir.

**Dissertasiya işinin sonunda tədqiqatın aşağıdakı nəticə və təklifləri verilmişdir:**

- davamlı inkişaf və informasiya əsri kimi xarakterizə edilən XXI əsr həm də sürətli inteqrasiya prosesləri ilə daxili və beynəlxalq rəqabət mübarizəsinin daha da kəskinləşməsinə gətirib çıxarmışdır. Artıq ölkə iqtisadiyyatının və onun ayrı-ayrı sahələrinin müvafiq rəqabətqabiliyyətinə malik olması, müstəqil dövlətin mövcudluğunun və iqtisadi suverenliyinin zəruri şərtinə çevrilmişdir. Belə bir şəraitdə hər bir ölkə iqtisadiyyatının aparıcı qolu olan milli sənayenin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi zəruri bir prosesə çevrilmişdir;
- Araşdırmalar göstərir ki, rəqabətqabiliyyətliliyə məhsulun keyfiyyət göstəriciləri, müəssisənin texniki-texnoloji imkanları və s. kimi müxtəlif amillər təsir edir. Bu amillərə kompleks şəkildə yanaşılması, müvafiq

keyfiyyət standartlarına yenidən baxılması və yalnız bu standartlara cavab verən məhsulların, eləcə də müəssisələrin fəaliyyətinin stimullaşdırılması məqsədəuyğun olardı;

- İranda milli sənayenin rəqabətqabiliyyətliliyinin müasir vəziyyətinin təhlilindən bu nəticəyə gəlmək mümkündür ki, kifayət qədər zəngin potensial və inkişaf üçün əlverişli coğrafi-strateji şərait olduğu halda, qeyri-neft sənaye sahələrinin rəqabətqabiliyyətliliyi lazımi səviyyədə deyildir. Belə ki, İranda istehsal edilən qeyri-neft sənaye məhsulları o qədər də alıcı cəlbediciliyinə malik deyildir. Təbii ki, burada müxtəlif obyektiv və subyektiv amillərin təsiri vardır. İlk növbədə, qeyri-neft sənaye sahələrinin texniki-texnoloji təminatı müasir tələbata tam cavab vermir. Digər tərəfdən, müasir idarəçilik keyfiyyətlərinə malik çevik iş adamlarının sayı çox azdır. Nəticədə, ayrı-ayrı sənaye müəssisələri öz fəaliyyətini yalnız daxili bazarda müəyyən mövqe tutmaqla məhdudlaşdırır ki, bu da müəssisənin daha genişmiqyaslı fəaliyyət göstərməsini ləngidir. Bu baxımdan, təcrübə də sübut edir ki, texniki-texnoloji silahlanma və kadr təminatı məsələləri rəqabətqabiliyyətliliyin yüksəldilməsinin ən vacib amilləridir;

- Müşahidələr göstərir ki, milli sənayenin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin mühüm amillərindən biri də sənaye ilə institutlar arasında, yəni istehsal müəssisələri ilə elmi-tədqiqat müəssisələri arasında qarşılıqlı əməkdaşlığın yaxşılaşdırılmasıdır. Belə ki, bu əməkdaşlıq sənaye sahələrində çalışan ixtisaslı kadrların sayını artırmağa və keyfiyyətini yüksəltməyə imkan yaradar. Nəticədə, istehsal edilən məhsulların, eləcə də ümumilikdə sənayenin rəqabətqabiliyyətlilik səviyyəsi yüksələr;

- Təbii ki, rəqabət mübarizəsində tab gətirmək, müəssisənin müvafiq rəqabətqabiliyyətliliyini formalaşdırmaq müəyyən vəsait qoyuluşu tələb edir. Bu baxımdan da, milli sənayenin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində investisiyalar xüsusi rola malikdir. İnvestisiya qoyuluşlarının rəqabətqabiliyyətliliyin yüksəldilməsi baxımından səmərəliliyinin daha da artırılması məqsədilə vəsaitlərin, əsas etibarı ilə yeniliklərin tətbiqinə yönəldilməsi məqsədəuyğun olardı. Bunun üçün, müvafiq stimullaşdırıcı addımların atılması zəruridir. Eyni zamanda, xaricdən yeni texnika və texnologiya idxalına gömrük rüsumlarına yenidən baxılması, müəyyən vergi güzəştləri və s. nəzərdən keçirilə bilər;

- Milli sənayenin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün innovasiya siyasətinin gücləndirilməsi, milli innovasiya sisteminin formalaşdırılması, innovasiya fəaliyyəti haqqında müvafiq normativ-hüquqi baza-

nın formalaşdırılması çox vacibdir. Bu halda, həm yeniliklərin əldə edilməsi və tətbiqi asanlaşar, həm də müəyyən tənzimləmə imkanları artar;

- İran qeyri-neft sənaye sahələrinin müxtəlif istiqamətlərinin inkişafı üçün zəngin və çeşidli təbii-iqtisadi resurs ehtiyatlarına malikdir. Amma, bununla yanaşı, İranın müqayisəli üstünlüyə malik olduğu sahələrin daha da konkretləşdirilməsi və innovasiya, modernləşmə və investisiya qoyuluşlarında bu sahələrə üstünlük verilməsi daha məqsədəuyğun olardı. Bu halda, ümumilikdə milli sənayenin inkişafını təmin etməklə yanaşı, müəyyən sahələrdə yüksək beynəlxalq rəqabətqabiliyyətliliyinə də nail olmaq mümkündür.

**Dissertasiya işinin əsas nəticə və müddəaları aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

**1.** Ə.M.Fathollahzadeh "İran İslam Respublikasının iqtisadi inkişafında sənaye sahələrinin əhəmiyyəti"AMEA İqtis.ins-nun Elmi əsərləri səh.289-293 №4,209

**2.** Ə.M.Fathollahzadeh "Milli sənayenin rəqabət qabiliyyətliliyinin nəzəri əsasları və prinsipləri" AMEA İqtis.ins-nun Elmi əsərləri №4 2011 səh 340-344

**3.** Ə.M.Fathollahzadeh "Qloballaşma şəraitində rəqabət qabiliyyətinin yüksəldilməsinin səciyyəvi xüsusiyyətləri". AMEA Iqtisadiyyat Instirtutu, Elmi əsərlər, 2010, № 4, səh. 144-150;

**4.** Ə.M.Fathollahzadeh "Rəqabət qabiliyyətinin yüksəldilməsi səmərəli inteqrasiyanın başlıca şərtidir" AMEA İqtis.ins-nun İqtisadi artımın intensiv inkişaf problemləri; səh.38-40. Bakı2011.

**5.** Ə.M.Fathollahzadeh "Milli sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsinə dair beynəlxalq təcrübə"Gürcüstan Elmi məqalələr. İSSN 1987-7471№2(14)2010

**6.** Ə.M.Fathollahzadeh "Beynəlxalq rəqabət mühiti və milli sənayenin inkişaf problemləri" AMEA İqtis.inst. Azərb.regionlarının sosial-iqtisadi inkisafı. səh 74-75.Bakı 2011.

**7.** Ə.M.Fathollahzadeh "Dünyada cərəyan edən rəqabət mübarizəsinin Iran İslam Respublikasının iqtisadi inkişafına təsiri"AMEA İqtis. İnstutu Bakı 2011. səh 48-50. Milli İqtis. modernləşməsi mövcud vəziyyət və gələcək perspektivlər mövzusunda elmi-praktiki konfransın materialları.

**8.** Ə.M.Fathollahzadeh "Iran Islam Respublikasında aqrar-sənaye kompleksinin rəqabətqabiliyyətliliyi"AMEA İqtis.inst."Ərzaq təhlükə-

sizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materiallar və tezisləri; Bakı 2011,səh 207-208.

**9.** Ə.M.Fathollahzadeh "Modernləşmənin sosial-iqtisadi mahiyyəti və milli sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsində onun rolu". AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2010, №4, səh.79-86

**10.**А.М.Фатуллахзаде. "Роль модернизации в повышении конкурентоспособности национальной промышленности" .стр.256-258.Москва №6,2011.

**Али Мухаммед Фатуллахзаде Кхое**

**Направления повышения конкурентоспособности ненефтяных промышленных отраслей в Иранской Исламской Республике**

# РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, 3-х глав, выводов и предложений, списка использованной литературы.

Во введении обоснована актуальность исследования, показана степень ее разработанности в экономической науке, определены цель, задачи, объект и предмет исследования, ее научная новизна, теоретическая и практическая значимость и апробация результатов исследования.

В первой главе «Теоретико-методологические основы формирования конкурентоспособности национальной промышленности» исследуются социально-экономическая сущность понятий конкуренция, конкурентоспособность, конкурентные условия, теоретические основы и принципы обеспечения конкурентоспособности промышленности, а также показаны специфические особенности повышения конкурентоспособности.

Во второй главе главе «Анализ и оценка современного состояния конкурентоспособности ненефтяных промышленных отраслей Азербайджана и Ирана» на основе обширных статистических материалов проанализирована динамика развития конкурентоспособности промышленности, изучен роль государства в повышении конкурентоспособности.

В третьей главе «Направления повышения конкурентоспособности ненефтяных промышленных отраслей в Иранской Исламской Республике» исследованы пути повышения конкурентоспособности в условиях глобализации, влияние модернизации и инновационных процессов на национальную конкурентоспособность промышленности.

В заключении исследования обобщены выводы и предложения.

**Ali Muhammad Fatullahzadeh Khoe**

**Directions of increase of competitiveness of unpetroleum industrial branches in Islamic Republic of Iran**

## SUMMARY

Dissertation work consists of introduction, 3 chapters, conclusions and suggestions, list of the used bibliography.

Research actuality is reasonable in introduction, the degree of its worked out is shown in economic science, an aim, tasks, object and subject of research, its scientific novelty, theoretical and practical meaningfulness and approbation of research results.

In the first chapter "Theoretical and methotodological bases of forming of competitiveness of national industry" are recearched socio-economic essence of concepts competition, competitiveness, competition terms, theoretical bases and principles of providing of competitiveness of industry and also the specific features of increase of competitiveness are shown.

In the second chapter "Analysis and estimation of the modern state of competitiveness of unpetroleum industrial industries of Azerbaijan and Iran" is analyzed a development of competitiveness on the basis of vast statistical materials.

In the third chapter of "Direction of increase of competitiveness of unpetroleum industrial branches in Islamic Republic of Iran" the ways of increase of competitiveness are investigational in the conditions of globalization, influence of modernisation and innovative process on the national competitiveness of industry.

Conclusions and suggestions are generalized in the resume of research.

Каьыз форматы- 60х84  16/1, 1,8 ч.в.
Тираж -100
АМЕА-нын мятбяясиндя чап олунмушдур

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

***На правах рукописи***

**Али Мухаммед Фатуллахзаде Кхое**

# Направления повышения конкурентоспособности ненефтяных промышленных отраслей в Исламской Республике Иран

**Специальность:** 5307.01- Экономическая теория
5310.01- Мировая экономика

# А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ-2013**